


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 62 (24.199)

*8 aprel 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan-Gürcüstan əlaqələri yeni mərhələdə

### *Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycana işgüzar səfər edib*



Aprelin 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə işgüzar səfərə gələn Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü olub.

Prezident İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qarşıladı.

Prezident İlham Əliyev və Baş nazir İrakli Qaribaşvili birgə foto çəkdirdilər.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin olduğu qeyd edildi.

Prezident İlham Əliyev keçən ilin oktyabrında Gürcüstana səfərini məmnunluqla xatırladı və səfər zamanı aparılmış müzakirələrin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Gürcüstanın Baş nazirinin bu səfəri zamanı aparılacaq müzakirələrin önəmini vurğuladı. Azərbaycan Prezidenti bu səfərlər çərçivəsində görüşlərin məhz regionlarda keçirilməsinin çox önəmli və vacib bir ənənə olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi enerji, infrastruktur layihələrinin əhəmiyyəti vurğulandı. Bu xüsusda ölkələrimizin birlikdə reallaşdırdıqları enerji layihələrinin Avropanın enerji təhlükəsizliyində böyük rol oynadığı və bu enerji resurslarına tələbatın artdığı qeyd olundu. Həmçinin yol-infrastruktur layihələrinin həyata keçirilməsinin önəmi vurğulandı və bu xüsusda Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin genişləndirilməsi, onun imkanlarının artırılması istiqamətində birgə aparılan fəaliyyət xüsusi vurğulandı. Azərbaycanın və Gürcüstanın Orta Dəhlizdə önəmli rolu, bu xüsusda birgə səylərin göstərilməsinin vacibliyi qeyd olundu.

Görüşdə ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığı və bu istiqamətdə əlavə tədbirlərin görüldüyü bildirildi, Azərbaycanın SOCAR şirkətinin Gürcüstanda uğurlu fəaliyyəti xüsusi vurğulandı.

Söhbət zamanı Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin əhəmiyyəti, həmçinin Qara dənizin dibi ilə kabelin çəkilməsinin, bu xüsusda Azərbaycanın və Gürcüstanın digər tərəfdaşlarla işbirliyinin önəmi qeyd edildi.

Prezident İlham Əliyev və Baş nazir İrakli Qaribaşvili Azərbaycan ilə Gürcüstan arasında humanitar, mədəniyyət, təhsil, müdafiə sənayesi, hərbi, təhlükəsizlik, kənd təsərrüfatı və digər sahələrdə də əməkdaşlıq məsələlərini müzakirə etdilər.

Gürcüstanın Baş naziri bu il Azərbaycanda Ulu Öndər Heydər Əliyevin 100 illiyinin qeyd olunduğunu vurğuladı, Ümummilli Liderin əziz xatirəsinin gürcü xalqı tərəfindən də böyük hörmət və ehtiramla anıldığını bildirərək, Ulu Öndərin Gürcüstanın və gürcü xalqının böyük dostu olduğunu qeyd etdi.

* * *

Aprelin 7-də Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Qəbələ şəhəri ilə tanış edilib.

* * *



Aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Qəbələ regional "ASAN xidmət" mərkəzində olublar.

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəzin fəaliyyəti ilə bağlı məlumat verdi.

Prezident İlham Əliyevin iştirakı ilə 2016-cı il avqustun 10-da açılışı olan Mərkəz müvafiq sahələr üzrə qeydiyyat məhdudiyyəti olmadan vətəndaşlara xidmət göstərir. Yeddiillik fəaliyyəti dövründə regional mərkəzə, ümumilikdə, bir milyona yaxın vətəndaş müraciəti daxil olub. Eyni zamanda səyyar "ASAN xidmət" avtobusu vasitəsilə 220 mindən çox vətəndaş müraciəti qəbul edilib. Burada gündəlik orta müraciət sayı 1000-ə yaxındır.

Qəbələ regional "ASAN xidmət" mərkəzində indiyədək 673 könüllü fəaliyyət göstərib. Ötən dövr ərzində könüllülərin iştirakı ilə müxtəlif sosial layihələr, teatr tamaşaları, idman yarışları, intellektual oyunlar, xeyriyyə aksiyaları, tarix və mədəniyyət abidələrinə ekskursiyalar təşkil olunub.

Tanışlıq zamanı "ASAN xidmət" mərkəzlərinin fəaliyyətindən bəhs edən videoçarx göstərilib. Qeyd olunub ki, hazırda 24 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 7-si Bakıda, 2-si Gəncədə, 2-si Sumqayıtda olmaqla digərləri Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir. Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur.

"ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 360-dan çox xidmət göstərilir. "ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq", "Azərsu" və "Azəriqaz" tərəfindən 55 növ xidmət göstərilir.

Bu günədək "ASAN xidmət" mərkəzlərinə 8 milyon 624 mindən çox vətəndaşın 61 milyona yaxın müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,8 faizdir.

Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara səyyar formada xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü ilin iyunundan bəri 2 milyon 773 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib.

Məlumat verilib ki, könüllülər "ASAN xidmət"in fəaliyyətə başladığı ilk gündən etibarən bu konsepsiyanın bir komponentidir. Bu prosesə 30 mindən çox könüllü gənc qoşulub. Bu günədək 3300-dən çox könüllü "ASAN Kadr" portalı vasitəsilə işlə təmin olunub.

Həmçinin bildirilib ki, Dövlət Agentliyi öz fəaliyyəti çərçivəsində 16 ölkə və 2 beynəlxalq təşkilatla müqavilə imzalayıb. Bundan başqa, bir neçə ölkədən "ASAN xidmət" təcrübəsinin tətbiqi ilə əlaqədar müraciətlər daxil olub. Hazırda danışıqlar davam etdirilir.

Sonda Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə "ABAD-çı ailə" tərəfindən hazırlanmış əl sənətkarlığı məhsulu hədiyyə olunub.

* * *



Aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Qəbələ Qida Şəhərciyində də olublar.

Qəbələ Qida Şəhərciyinin baş direktoru Fuad Babayev Azərbaycan Prezidentinə və Gürcüstanın Baş nazirinə məlumat verdi.

Qeyd olundu ki, 16 hektar ərazidə yerləşən Qəbələ Qida Şəhərciyinin nəzdindəki konserv zavodu qabaqcıl Avropa texnologiyaları ilə təchiz edilib. Zavod meyvə şirəsi, limonad, qazlı və qazsız içkilər, soyuq çay və konsentrat istehsalı sahələrindən ibarətdir. Buradakı 13 istehsal xəttində 6 növ qablaşdırmada 130 adda məhsul istehsal edilir. Müəssisə ildə 360 min ton hazır məhsul istehsalı gücünə malikdir.

Saatda 10 min litr dolum sistemi vasitəsilə plastik qablaşdırmada meyvə tərkibli içkilər və soyuq çay, şirə və nektar istehsalı xətti isə saatda 20 min litr meyvə şirəsi və konsentrat istehsaletmə imkanına malikdir. Digər xətdə isə saatda 35 min litr hazır limonad və digər qazlı sərinləşdirici içkilər, qazlı və qazsız su istehsal olunur.

Müəssisədə qablaşdırma mərhələsindən əvvəl müəyyən reseptlər əsasında hazırlanmış tərkiblər laboratoriyada yoxlanılır və təsdiqləndikdən sonra istehsala göndərilir. Burada bütün istehsal prosesi tam avtomatlaşdırılıb. Qəbələ konserv zavodunda istehsal olunan məhsullar bir çox xarici ölkələrə ixrac edilir.

Məlumat verildi ki, kartof emalı müəssisəsində iki istehsal xətti fəaliyyət göstərir. Burada yarımfabrikat dondurulmuş kartof və kartof çipsi istehsal olunur. Yarımfabrikat dondurulmuş kartof istehsalı xəttinin hazır məhsul buraxılışı gücü saatda 2 ton təşkil edir. Çips istehsalı xəttinin gücü isə saatda bir ton hazır məhsuldur. Hər iki istehsal xətti tam avtomatlaşdırılmış sistem üzrə çalışır. Qəbələ rayonunda şirkətə məxsus olan 200 hektar ərazidə ildə 10 min tondan çox kartof yetişdirilir ki, bu da istehsal müəssisəsinin illik xammal tələbatını tam ödəyir. Kartof emalı müəssisəsinin istehsal etdiyi məhsullar ölkəmizdə təqdim olunmaqla yanaşı, bir sıra xarici ölkələrə də ixrac edilir. Sahələrdən yığılan kartof 6 min kvadratmetrlik ilkin soyuducu anbara yerləşdirilir. Müəssisədə, həmçinin keyfiyyətə nəzarət laboratoriyaları fəaliyyət göstərir. İstehsala göndərilməzdən əvvəl məhsulun fiziki-kimyəvi göstəriciləri yoxlanılır.

## Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mətbuata bəyanatlarla çıxış ediblər



Aprelin 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

**Prezident İlham Əliyevin bəyanatı**

– Hörmətli cənab Baş nazir.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, cənab Baş nazir, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Altı ay bundan əvvəl biz Gürcüstanda Sizin qonağınız idik və bu gün Siz Azərbaycandasınız. Mən Gürcüstanda olarkən Mçxeta rayonunda olmuşdum. Bu gün Siz Qəbələ rayonundasınız. Hesab edirəm ki, bu, çox yaxşı bir ənənədir. Çünki beləliklə, biz həm Gürcüstanın, həm də Azərbaycanın maraqlı tarixi yerləri ilə tanış oluruq və bu bizim dostluğumuzu daha da gücləndirir.

Gürcüstan ilə Azərbaycan uzun illər bir-biri ilə sıx əlaqədədir, biz dostuq, müttəfiqik, xalqlarımızı qardaşlıq əlaqələri bağlayır. Müzakirə olunan bütün məsələlər bir məqsədi güdür ki, ikitərəfli əməkdaşlığı dərinləşdirək və xalqlarımızın gələcəyi üçün lazım olan bütün addımları ataq.

Bu gün bir çox önəmli məsələlər müzakirə olunmuşdur və biz gələcək fəaliyyətimizi də əldə edilmiş razılaşmalar əsasında quracağıq.

Təbii ki, Gürcüstan və Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdir, bu rol getdikcə artır. Əlbəttə ki, bizim aramızda olan dostluq əlaqələri və bu sahədə əməkdaşlıq Avropanın enerji təhlükəsizliyi üçün də böyük töhfədir. Azərbaycan təbii qazının Avropa istiqamətinə ixracı ildən-ilə artmaqdadır. Bütövlükdə bu il Azərbaycan dünya bazarlarına 24,5 milyard kubmetr qaz ixrac edəcək və bu rəqəm ildən-ilə artır.

Keçən il Avropa İttifaqı ilə imzalanmış Anlaşma Memorandumuna əsasən biz 2027-ci ilə qədər təkcə Avropa məkanına 20 milyard kubmetr qazın nəqlini təmin etməliyik və əminəm ki, biz bu rəqəmə çatacağıq.

İndiki geosiyasi vəziyyəti nəzərə alaraq, əlbəttə ki, enerji təhlükəsizliyi məsələləri bütün ölkələr üçün ön plana çıxır. Uzun illərdir ki, Azərbaycan şirkəti SOCAR Gürcüstanda uğurla fəaliyyət göstərir. Dünən mənə verilən məlumata görə, SOCAR Gürcüstanda 11 min kilometr uzunluğunda qaz xətləri çəkmişdir və beləliklə, 830 mindən çox abonenti təbii qazla təmin edir.

Biz gələcəkdə energetika sahəsində əməkdaşlığın yeni istiqamətləri üzrə fəal işləyəcəyik, daha doğrusu, bu iş artıq başlamışdır. Keçən ilin sonunda Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya önəmli Sazişə imza atmışlar. Bu ilin fevral ayında isə Bakıda yaşıl enerji layihəsinin birinci rəhbər komitəsinin iclası keçirilmişdir. Bu, genişmiqyaslı layihədir. Əlbəttə ki, bu layihənin uğurla həyata keçirilməsi həm dörd ölkənin birgə fəaliyyəti hesabına mümkün olacaqdır, eyni zamanda bildiyiniz kimi, Avropa İttifaqı da bu layihəyə çox böyük önəm verir. Təsadüfi deyil ki, Avropa Komissiyasının Prezidenti imzalanma mərasimində də iştirak etmişdir.

Təbii ki, ikitərəfli əlaqələrimizin önəmli hissəsi nəqliyyatla bağlıdır. Burada da bütün işlər uğurla gedir, plan üzrə gedir. Orta Dəhlizin həyata keçirilməsində Gürcüstan və Azərbaycan uğurla fəaliyyət göstərirlər. Əlbəttə ki, növbəti mərhələdə yükdaşımaların həcminin artırılması istiqamətində əlavə addımlar atılacaqdır.

Mən keçən il və bu il Mərkəzi Asiya ölkələrinə dəfələrlə səfərlər etmişəm və bu il hələ edəcəyəm. Beləliklə, yeni yüklərin Orta Dəhliz üzrə nəql edilməsi üçün çox gözəl imkanlar var. Burada həm bütün inzibati məsələlər öz həllini tapmalıdır, tarif siyasəti vahid prizmadan həll edilməlidir, eyni zamanda yüklərin cəlb edilməsi və nəqli üçün birgə səylər göstərilməlidir. Təbii ki, bu gün bu məsələ də geniş müzakirə olunub və hələ olunacaq.

Bu, əsas fəaliyyət istiqamətləri idi. Amma təbii ki, Gürcüstan-Azərbaycan əlaqələri sadaladığım sahələrlə məhdudlaşmır. Bizim əlaqələrimiz bir çox sahələri əhatə edir – müdafiə sənayesi, təhsil, mədəniyyət, turizm, texnologiyalar, kənd təsərrüfatı. Əlbəttə ki, ticarət dövriyyəsinin artırılması üçün lazımi addımlar atılır. Əminəm ki, cənab Baş nazirin bugünkü səfəri bizim əlaqələrimizə yeni təkan verəcəkdir.

Hörmətli Baş nazir, bir daha xoş gəlmisiniz.

***

Sonra Gürcüstanın Baş naziri bəyanatla çıxış etdi.

**Baş nazir İrakli Qaribaşvilinin bəyanatı**

– Cənab Prezident, əziz dostum, mən Sizi salamlayıram.

Hörmətli İlham müəllim, mən bu gün ölkənizin bu füsunkar bölgəsində olmaqdan böyük şərəf duyuram. Mənim dostum Azərbaycan Prezidenti cənab İlham Əliyevə bizə göstərilən qonaqpərvərliyə görə təşəkkür edirəm.

Siz düz qeyd etdiniz ki, bir neçə ay öncə Gürcüstanda səfərdə oldunuz. Bu artıq yeni bir ənənədir ki, biz yalnız paytaxtlara deyil, həm də bölgələrə səfər edirik. Bu, çox gözəl təşəbbüsdür və bu gün də bizim burada olmağımız bunun sübutudur.

Bir daha onu qeyd etmək istərdim ki, Azərbaycanla, Azərbaycan xalqı ilə bu sıx dostluq və qardaşlıq münasibətləri olduqca önəmlidir. Bizim dostluğumuzun çox qədim tarixi var və Azərbaycan təkcə qonşumuz və dostumuz deyil, bizim mühüm strateji tərəfdaşımızdır. Uzun illər ərzində biz müxtəlif sahələrdə tarixi layihələri həyata keçirmişik və o layihələr bizim xalqları, ölkələri daha da sıx birləşdirdi. Biz yaxşı mənada bir-birimizdən asılıyıq və əminəm ki, bundan sonrakı uzun illərdə də bu belə olacaqdır. Biz dəfələrlə bu mühüm layihələri qeyd etmişik.

Məlumdur ki, Gürcüstan da etibarlı tranzit ölkəsi, tranzit tərəfdaşıdır. Cənab Prezidentin qeyd etdiyi kimi, biz bu fəaliyyətimizi davam etdiririk və dayanmırıq. Bildiyiniz kimi, biz Qara dənizin dibi ilə elektrik kabeli aparacağıq, Orta Dəhliz məsələsini inkişaf etdiririk. Yaşıl enerjini Avropaya nəql etmək üçün bizim nəhəng potensialımız mövcuddur, bunun çox böyük perspektivləri var. Bu, bir gələcəkdir. Hər iki ölkə bu sahəyə daha çox sərmaye qoyacaq. Biz bunu da müzakirə etdik.

Bundan əlavə, əlbəttə ki, biz regiondakı vəziyyəti müzakirə etdik. Hazırda Ukraynadakı vəziyyət müzakirə edildi, burada risklər, çağırışlar mövcuddur. Elə çağırışlar ki onlar İkinci Dünya müharibəsindən sonra mövcud deyildi. Bizim başlıca amalımız sülh və sabitliyin təmin edilməsidir. Çünki bunlar olmasa, heç bir inkişaf və firavanlıqdan söhbət gedə bilməz.

Biz yeni iş yerləri açmalıyıq və xalqlarımızın firavanlığını təmin etməliyik. Biz bu sahədə eyni baxışa malikik. Ölkələrimiz arasında münasibətlərin daha sıx olmasını arzulayırıq.

Onu da əlavə etmək istəyirəm ki, biz Orta Dəhliz layihəsi üzrə birgə koordinasiyalı şəkildə çalışırıq. Bizim məqsədimiz də yaxın gələcəkdə bütün maneələri aradan qaldıraraq, infrastrukturu – dəniz limanlarımızı, dəmir yollarımızı birgə inkişaf etdirməkdir. Bildiyiniz kimi, biz Gürcüstanda yeni limanın inşası üzərində çalışırıq. Bir ildən sonra biz dəmir yolunun genişləndirilməsi layihəsini həyata keçirəcəyik, Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyəti genişləndiriləcək və biz Orta Dəhliz vasitəsilə daha çox yüklər cəlb edə biləcəyik.

Bunu bir daha qeyd etmək istərdim ki, bizim əsas məqsədimiz regionda sülhü və sabitliyi təmin etməkdir. Regionda daha çox layihələr həyata keçirməliyik və biz işimizi gözəl qardaşlıq mühitində irəli aparacağıq.

Cənab Prezident, bir daha Sizə hədsiz minnətdarlığımı bildirirəm. Bu il ölkənizdə Siz dahi atanız Heydər Əliyevin 100 illiyini qeyd edirsiniz. Siz bizim dostumuzsunuz və Heydər Əliyev də Gürcüstanın böyük dostu olub. Sizə və Azərbaycan xalqına sülh və sabitlik arzu edirəm. Təşəkkür edirəm diqqətinizə görə.

* * *

Aprelin 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin şərəfinə nahar verilib.

## Prezident: “Azərbaycan ÜST-lə səmərəli əməkdaşlığı bundan sonra da davam etdirəcək”




Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Qebreyesusun fəaliyyətini yüksək qiymətləndiririk. Azərbaycan təşkilatla səmərəli əməkdaşlığı bundan sonra da davam etdirəcək.

Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Ümumdünya Sağlamlıq Günü münasibətilə paylaşımında əksini tapıb.

Paylaşımda qeyd edilib ki, Ümumdünya Səhiyyə Təşkilatı özünün 75 illiyini qeyd edir. Azərbaycan hər kəsin sağlamlığının təmin edilməsinə dair BMT-nin 3-cü Dayanıqlı İnkişaf Məqsədinin icrasına mühüm əhəmiyyət verir və bununla bağlı milli səviyyədə ardıcıl və məqsədyönlü fəaliyyət həyata keçirir: “Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatı Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi ilə COVID-19 pandemiyası ilə mübarizədə qlobal liderlik nümayiş etdirmişdir. Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Qebreyesusun fəaliyyətini yüksək qiymətləndiririk. Azərbaycan təşkilatla səmərəli əməkdaşlığı bundan sonra da davam etdirəcək”.

**AZƏRTAC**

## H.F.Bağırovun Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Hüseyn Fərəməz oğlu Bağırov Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 7 aprel 2023-cü il*

## V.N.Rəsulun Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vaqif Nəcəfalı oğlu Rəsul Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 6 aprel 2023-cü il*

## Yeni komitə sədri kollektivə təqdim olunub

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsul vəzifəsindən azad edilib, onun yerinə Hüseyn Fərəməz oğlu Bağırov təyin olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov komitənin yeni sədri Hüseyn Bağırovu kollektivə təqdim ediblər.

Təqdimatdan öncə Fuad Nəcəfli və Tahir Budaqov Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, Ulu Öndərin xatirəsinə ehtiramlarını bildiriblər.

Təqdimat zamanı Naxçıvanda statistika işinin aparılması və təşkili, təsərrüfatların qeydiyyatı, statistik hesabatların hazırlanması zamanı ötən illərdə buraxılan nöqsanlar diqqətə çatdırılıb.

Fuad Nəcəfli və Tahir Budaqov işlərin dövrün tələblərinə uyğun qurulması, fəaliyyətin yenidən və çevik formada təşkili barədə yeni rəhbərliyə öz tapşırıq və tövsiyələrini çatdırıblar.

Qeyd edək ki, Hüseyn Bağırov 1979-cu ildə Naxçıvan şəhərində anadan olub. Bu təyinatadək Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində çalışıb.

**"Şərq qapısı"**

## Ümummilli Liderin 100 illik yubileyi münasibətilə tədbirlər keçirilib



Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə 7 aprel – Ümumdünya Sağlamlıq Günü münasibətilə "Səhiyyənin inkişafında Ulu Öndər Heydər Əliyevin rolu" mövzusunda tədbir keçirilib.

Tədbirdə Ombudsmanın köməkçisi Rəşid Talıbov və Səhiyyə Nazirliyinin aparat rəhbəri Vüqar Babayev giriş sözü ilə çıxış edərək ölkəmizdə səhiyyənin inkişafı və tibbi kadrların hazırlanması sahəsində Ulu Öndər Heydər Əliyevin xidmətləri, eləcə də əhalinin sağlamlığının qorunması və sağlamlıq hüququnun müdafiəsi istiqamətində həyata keçirilmiş tədbirlər və görülmüş işlər barədə danışıblar.

Müvəkkil aparatının şöbə müdiri Vahidə Bayramovanın "Səhiyyənin inkişafında Ulu Öndər Heydər Əliyevin rolu" mövzusunda çıxışı dinlənilib. Qeyd olunub ki, dahi şəxsiyyətin xalqımızın həyatında, müstəqil dövlətçilik tariximizdə misilsiz yeri olmaqla yanaşı, həm də Azərbaycan səhiyyəsinin və tibb elmi sisteminin yaradıcısı və dinamik inkişafının tənzimləyicisi kimi yaddaşlara əbədi həkk olunub.

Sonra Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə müdiri Faiq Səfərovun, Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin şöbə müdiri Elnur İbrahimovun və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin baş məsləhətçisi Məhsəti Allahyarovanın çıxışları dinlənilib.

Tədbirin sonunda mövzu ətrafında fikir mübadiləsi aparılıb.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

* * *




Naxçıvan İpoteka Fondu Açıq Səhmdar Cəmiyyətinin kollektivi Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Ümummilli Liderin Naxçıvan şəhərində əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyaraq dahi şəxsiyyətin xatirəsini ehtiramla yad edib. Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub. Əvvəlcə muzey kitabxanasında Ulu Öndərin ictimai-siyasi fəaliyyətini və keçdiyi şərəfli həyat yolunu əks etdirən videokompozisiyaya baxış olub. Sonra muzeyin direktoru Ramil Orucəliyev Ümummilli Liderin dövlət idarəçiliyindəki misilsiz xidmətləri ilə bağlı ətraflı məlumat verib. Ekspozisiya ilə tanışlıq zamanı bələdçi Hicran Bədəlova kollektivi dəyərli eksponatlar barədə məlumatlandırıb. Qeyd edilib ki, 1999-cu il 10 may tarixdən fəaliyyət göstərən muzey görkəmli dövlət xadiminin sağlığında yaradılan ilk muzeydir və hazırda muzey fondunda 5 mindən çox eksponat mühafizə olunur. Ümummilli Liderimizin xalqımıza yadigar qoyduğu zəngin irsin yüksək səviyyədə təqdim edildiyi muzeyin ekspozisiya zalında görkəmli dövlət xadiminin imzaladığı, qəbul etdiyi tarixi qərar, sərəncam və digər sənədlər haqqında fondun əməkdaşları dərin məlumat əldə ediblər.

* * *



Naxçıvan Dövlət Texniki Kollecində "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan təhsili" mövzusunda konfrans keçirilib.

Əvvəlcə Naxçıvan Dövlət Texniki Kollecinin kollektivi xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstəsi qoyub, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad edib.

Konfransı giriş sözü ilə açan Naxçıvan Dövlət Texniki Kollecinin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Asəf Ruşanov Ulu Öndərin Azərbaycan təhsilinin müasir qaydalar əsasında qurulmasında və onun inkişaf etdirilməsindəki tarixi xidmətlərindən bəhs edib.

Bildirilib ki, dahi rəhbərin Azərbaycan xalqının gələcəyinə istiqamətlənmiş strategiyasında təhsil sahəsinin inkişaf etdirilməsi prioritet istiqamət təşkil edib. Azərbaycanda təhsilin dünyanın inkişaf tendensiyalarına və beynəlxalq standartlara cavab verən hazırkı səviyyəyə çatmasında Ümummilli Lider Heydər Əliyevin xidmətləri, əvəzsiz rolu olmuşdur.

Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, tarix elmləri doktoru Xəzər Hüseynov Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü haqqında danışaraq bildirib ki, Azərbaycanın dövlət müstəqilliyi taleyində görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrü xüsusi əhəmiyyətə malikdir.

Sonra çıxışlar olub, sənədli film nümayiş edilib.

**Xəbərlər şöbəsi**

## Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya "Naxçıvan" Universitetində



Universitetlə tanışlıq zamanı Baş konsula bildirilib ki, böyük bir ərazini əhatə edən universitet korpusu – rektorluqdan, fakültələrdən, elmi kitabxanadan, yataqxanadan, idman və konfrans zallarından, sosial mərkəzdən ibarətdir. Korpuslarda ən müasir tədris bazası yaradılıb. Potensial baza imkan verir ki, universitetdə peşəkar mütəxəssislər hazırlansın. Asip Kaya ilə STEAM komandasının, eyni zamanda "Naxçıvan" Universitetində təhsil alan türkiyəli tələbələrin görüşü də baş tutub. Konsul universitetin konfrans zalında tələbələr tərəfindən hazırlanan şeir və musiqi nömrələrini izləyib, tələbələrin sual və təkliflərini dinləyib.

Görüş zamanı "Naxçıvan" Universitetinin rektoru, dosent Anar Kazımov qonağı salamlayaraq yeni təyinatı münasibətilə Asip Kayanı təbrik edib, ona diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Türkiyə-Azərbaycan münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini vurğulayan rektor bildirib ki, bu iki dövlət dünyada qardaş ölkələr kimi tanınır, birbirinə sözdə yox, əməldə sadiqlik nümayiş etdirirlər. Biz buna həm 44 günlük Vətən müharibəsində, həm də Türkiyədə baş verən "Əsrin fəlakəti" adlanan zəlzələ zamanı şahid olduq. Rektor, həmçinin qardaş ölkədə baş verən zəlzələ nəticəsində həlak olanlara başsağlığı verib, yaralılara şəfa diləyib.

Ali təhsil ocağının mövcud ixtisasları, kadr potensialı haqqında məlumat verilib. Qeyd edilib ki, universitetdə 4 fakültə, 9 kafedra fəaliyyət göstərir. Universitetdə bakalavr təhsil pilləsində 25, magistratura mərhələsində 9, doktorantura və dissertantura pilləsində isə 8 ixtisaslaşma üzrə mütəxəssis hazırlığı həyata keçirilir. Universitetin professor-müəllim heyətinin mövcud elmi potensialı haqqında məlumat verilərək bildirilib ki, yaxın gələcəkdə professor-müəllim heyətinin beynəlxalq indeksli elmi bazalara çıxışlarının artırılması istiqamətində işlər aparılır. "Naxçıvan" Universitetinin beynəlxalq əməkdaşlığında Türkiyə universitetlərinin xüsusi yeri və rolu vardır. Belə ki, ali təhsil ocağı beynəlxalq əlaqələr sahəsində qardaş ölkənin 20-dən çox universiteti ilə sıx əməkdaşlığa malikdir, hazırda əməkdaşlıqların genişləndirilməsi, diplomların qarşılıqlı tanınması layihələri üzərində çalışır. Diqqətə çatdırılıb ki, "Naxçıvan" Universitetində təhsil alan əcnəbi tələbələrin böyük əksəriyyətini türkiyəli tələbələr təşkil edir.

Baş konsul Asip Kaya çıxış edərək diplomatik fəaliyyəti barədə məlumat verib. Muxtar respublikaya təyinatından məmnunluq duyduğunu bildirən qonaq humanitar, iqtisadi və elm sahəsində mümkün əməkdaşlıqlardan söz açıb. İki qardaş ölkə arasında münasibətlərin ən yüksək səviyyədə olduğuna diqqət çəkən Asip Kaya Şuşa Bəyannaməsi ilə rəsmiləşdirilən Türkiyə - Azərbaycan müttəfiqliyini, ən çətin zamanlarda bir-birinə göstərdikləri mənəvi dəstəyi bu qardaşlığın dünyaya bəyanı kimi səciyyələndirib. Qonaq söyləyib ki, Naxçıvanın mühüm geosiyasi mövqeyi, yaxın zamanda Zəngəzur dəhlizinin açılması ilə bölgənin daşıyacağı strateji önəm mədəni fikir mübadiləsinin vacibliyini şərtləndirən amil olmaqla bərabər, hər iki ölkə arasında ortaqlığın elm sahəsində də uğurlu davamını labüd edir.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## Muxtar respublikada əmək pensiyalarının və məcburi dövlət sosial sığortası haqları hesabına müavinətlərin maliyyələşdirilməsi yekunlaşıb

Muxtar respublikada cəmiyyətin həssas qrupu sayılan pensiyaçıların rahatlığının təmin olunması, onların rifah halının yaxşılaşdırılması tədbirləri diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu da bu istiqamətdə verilən tapşırıqların yerinə yetirilməsi üçün mütəmadi olaraq tədbirlər görür. Əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin ödənilməsi də bu tədbirlərdən biridir. Fond bu istiqamətdə üzərinə düşən vəzifələrin icrasını yerinə yetirib və ötən aylarda olduğu kimi, aprel ayında da pensiyaların və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin maliyyələşdirilməsi ilə bağlı işləri vaxtından əvvəl başa çatdırıb. Tələb olunan vəsait fondun xəzinə hesabından pensiyaçıların plastik bankomat kartlarına köçürülüb.

Qeyd edək ki, fond tərəfindən sığortaolunanlara ödənilən uşağın anadan olmasına görə birdəfəlik müavinətin təyin edilməsi və ödənilməsi proaktiv qaydada həyata keçirilib. Uşağın anadan olmasına görə birdəfəlik müavinət müraciət olunmadan və sənəd təqdim edilmədən elektron qaydada təyin edilərək ödənilib. Müavinətin ödənilməsi və hansı bankdan götürülməsi barədə məlumat ödəniş rəsmiləşdirilmiş şəxsin adına olan telefon nömrəsinə bildiriş göndərilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Babək rayonunda birinci rüb ərzində 164 abonent genişzolaqlı internetlə təmin edilib



Muxtar respublikada əhalinin müasir rabitə və internet xidmətləri ilə təmin edilməsi, göstərilən xidmətlərin hər bir sakin üçün əlçatan olması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir. Yüksəksürətli internet şəbəkəsinin yaradılması, informasiya-kommunikasiya xidmətlərinin müasir tələblər səviyyəsində qurulması, əhalinin müasir rabitə xidmətləri ilə əhatə olunması Babək rayonunda da uğurla davam etdirilib. Cari ilin birinci rübü ərzində rayonda 47 abonent yeni stasionar telefon xətti ilə, 164 abonent isə ADSL (Asimmetrik Rəqəmsal Abunəçi Xətti) internetlə təmin olunub.

Bunlarla yanaşı, rayonun Cəhri və Nehrəm qəsəbələrində, Qahab, Güznüt, Çeşməbasar, Şəkərabad, Zeynəddin və Şıxmahmud kəndlərinin rabitə xətlərində təmir işləri aparılıb. İstismar olunan zaman sıradan çıxmış rabitə dirəklərinin, rabitə xətt və abunə qurğularının bərpası istiqamətində operativ və zəruri tədbirlər həyata keçirilib. Eyni zamanda həmin ərazidə yeni stasionar telefon xətlərinin çəkilişi məqsədilə yeni kabellər çəkilməklə montaj tutumları artırılıb. İstismarda olan kabellər iritutumlu kabellərlə dəyişdirilib. Yeni çəkilmiş kabellərin montaj tutumunun artırılması üçün paylayıcı şkaflarda zəruri texniki tədbirlər də görülüb.

Qeyd olunanlarla yanaşı, əhaliyə göstərilən rabitə xidmətlərinin keyfiyyətinə nəzarət edilməsi üçün mütəmadi olaraq xətt təsərrüfatının vəziyyəti yoxlanılıb, müraciətlərinə uyğun olaraq sakinlərə texniki dəstək və metodiki köməklik göstərilib.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Tələbələr üçün *"Peşəkar bələdçi"* təlimi



Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən tərtib edilmiş qrafikə uyğun olaraq istehsalat təcrübəsi müddətində Naxçıvan Dövlət Universitetinin Turizm və otelçilik ixtisası üzrə təhsil alan IV kurs tələbələrinə 6 və 7 aprel 2023-cü il tarixlərdə "Peşəkar bələdçi" təliminin I və II modulları keçirilmişdir. Təlimlər Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin statistika və sertifikatlaşdırma sektorunun müdiri, Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının "Peşəkar bələdçi" şəhadətnaməli təlimçisi Süleyman Rüstəmov tərəfindən keçirilmişdir. Təlimin I modulunda məruzəçi bildirmişdir ki, keçirilən təlimlərin əsas məqsədi peşənin imicini artırmaq, bu sahə üçün yeni insan resurslarını müəyyənləşdirmək və tələbələrə bələdçilik fəaliyyətinin mahiyyətini aşılayaraq peşəsini sevdirməkdən ibarətdir.

Təlimçi tələbələrə ilkin səyahətlərin yaranması, Azərbaycanda turizmin qısa tarixi, ekskursiyanın mahiyyəti, ekskursiya zamanı məntiqi təfəkkür qanunlarından istifadə haqqında məlumat vermişdir.

Məruzəçi vurğulamışdır ki, məqsədimiz bu modulu tamamladıqdan sonra tələbələrin turizm-ekskursiya işinin təşkilində yüksək səviyyədə bilik və bacarıqlara yiyələnməsidir. Modulumuzun I təlim nəticəsini mənimsəyən tələbə bələdçilik sənətinin tarixini, mahiyyətini və bələdçilik peşəsi ilə bağlı huquqi-normativ sənədləri biləcək, bələdçilik peşəsinin bu gününü və keçmişini uzlaşdırmağı, ekskursiyanın mahiyyətini müəyyən etməyi, peşəkar bələdçi peşəsi ilə bağlı hüquqi-normativ sənədləri sadalamağı bacaracaqdır.

Sonra təlimçi tələbələrə bələdçi şəhadətnaməsi almaq üçün prosedur qaydalarını izah etmişdir.

"Peşəkar bələdçi" təliminin II modulu zamanı isə təlimçi öncə ekskursiya bələdçisinin peşəkarlığının tərkib hissələri haqqında tələbələrə məlumat vermişdir. Bildirmişdir ki, peşəkarlıq hər hansı bir sahədə yüksək qabiliyyət, müstəsna bacarıq deməkdir. Ekskursiya bələdçisinin peşəkarlığının mühüm cəhəti onun qrupa rəhbərlik edə bilməsi və turistlərlə ünsiyyət yaradıb onu uzun müddət saxlamaq bacarığıdır. Təlimçi slayd vasitəsilə tələbələrə ekskursiya zamanı bələdçilərin vəzifəsi, peşə etikası, şifahi nitqin əsas xüsusiyyətləri, nitqin dinləmə və görmə elementləri, ekskursiya zamanı daxili və xarici manerələr haqqında geniş məlumat vermişdir.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin mətbuat xidməti***

*2023-cü il “Heydər Əliyev İli”dir*

# Ümummilli Lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafındakı misilsiz xidmətləri unudulmazdır




*Ümummilli Liderimiz Heydər Əliyevin siyasi fəaliyyəti dövründə səhiyyəmiz öz intibah dövrünü yaşadığından, görkəmli dövlət xadiminin bu sahədə olan xidmətlərinin tədqiqi və təhlili xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan səhiyyəsi XX əsrin sonları və XXI əsrin əvvəllərində – 30 ildən çox bir dövrdə dahi şəxsiyyətin himayəsində olmuş və onun rəhbərliyi altında inkişaf etmişdir. Azərbaycan səhiyyəsinin inkişafında və xalqımızın sağlamlıq səviyyəsinin yüksəldilməsində misilsiz xidmətləri olan Ulu Öndər milli səhiyyəmizin əsrlərə bərabər inkişaf və tərəqqisinə rəvac vermişdir.*

Azərbaycana rəhbər seçildiyi 1969-cu ilin iyulunda dahi rəhbər Heydər Əliyevin təşəbbüsü ilə səhiyyə qanunvericiliyinin əsasları barədə qərar qəbul edildi və strateji proqram xarakterli bu qərar milli səhiyyəmizin tərəqqisi yolunda həyata keçirilən müxtəlif tədbirlərin başlanğıcı oldu. Ulu Öndərin hakimiyyətə gəldiyi ilk dövrdən rayonlarda ixtisaslı həkimlərin, xüsusən kardioloq, onkoloq, ginekoloq, nevropatoloq, sanitar həkim və epidemioloqların, orta ixtisas təhsilli tibb işçilərinin və tibb bacılarının çatışmazlığı kəskin hiss olunurdu. Bu problemin həlli üçün, ilk növbədə, tibbi profilli ali və orta ixtisas məktəblərinə tələbə qəbulunun sayı artırıldı, ucqar yaşayış məntəqələrindən gələn abituriyentlər üçün güzəştlər tətbiq edildi. Məhz bu kompleks tədbirlər sayəsində bölgələrin səhiyyə müəssisələrində kadr çatışmazlığı aradan qaldırıldı. Sağlamlıq haqqında Azərbaycan SSR Qanununun qəbul edilməsi isə bu sahədə görülən işlərin məntiqi davamı idi. Tam əminliklə demək olar ki, Əbədiyaşar Liderimizin uzun illərə hesablanmış strategiyasının uğurlu tətbiqi nəticəsində səhiyyə sistemini qarşıda daha böyük tərəqqi, nailiyyətlər gözləyirdi.

Əsasları o dövrdə qoyulan “Sağlamlığımızın qeydinə sağlam ikən qalmaq” prinsipinin reallaşdırılması üçün yeni səhiyyə müəssisələrinin tikilməsi, mövcud olanların abadlaşdırılması və profillərinin genişləndirilməsi, xəstəxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, ən müasir tibbi avadanlıq, aparat və cihazlarla təchiz edilməsi, profilaktik təbabətin tələbatına uyğun şəkildə əhalinin kütləvi dispanserizasiyası, sanatoriya və kurortlar şəbəkəsinin genişləndirilməsi günün vacib məsələləri kimi qarşıya qoyuldu. Dünya təbabətinin yeni nailiyyətlərinin respublikamıza gətirilməsi və xarici mütəxəssislərin diqqətini ölkəmizə cəlb etmək üçün təbabətin müxtəlif sahələrinə həsr olunmuş beynəlxalq simpozium, konfrans, konqres və qurultaylar keçirilmiş, hər il yüzlərlə gənc mütəxəssis keçmiş Sovetlər İttifaqının ən mötəbər ali məktəblərində müxtəlif ixtisaslar üzrə təhsil almağa başlamış, məşhur klinikalarda doktoranturaya göndərilmişdir.

1974-cü ildə Naxçıvan MSSR-in 50 illik yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana gəlmiş dahi siyasətçi Heydər Əliyev Naxçıvan Tibb Məktəbində də olmuş, məktəbin kollektivi ilə görüşmüş, burada tədrisin səviyyəsi, dərslərin keyfiyyəti, əyani vasitələrin təchizi ilə maraqlanmış və kollektiv qarşısında çıxışında Naxçıvan Tibb Məktəbinin Naxçıvanda, eləcə də Azərbaycanda orta ixtisaslı tibb kadrlarının hazırlanmasında müstəsna rolunu xüsusi olaraq qeyd etmişdir.

Görkəmli dövlət xadimi 1983-cü ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildikdən sonra respublikamızın səhiyyəsinə diqqəti daha da artırmış və o öz xatirələrində yazdığı kimi ***“...SSRİ-nin rəhbərliyində olduğum illərdə daim səhiyyə ilə, tibb elmi ilə yaxın olmuşam, ona qayğı göstərmişəm və hesab edirəm ki, çox işlər görmüşəm.... Mən bu gün böyük məmnuniyyətlə xatırlayıram ki, o vaxt SSRİ dövləti tərkibində Azərbaycan səhiyyəsinə marağı, qayğını daha da artırırdım. Moskvada yerləşən o böyük tibb elmi mərkəzlərinin diqqətini Azərbaycana cəlb edirdim və Azərbaycana yardım etməyə çalışırdım”.***

Ulu Öndərin bu diqqət və qayğısı sayəsində muxtar respublikamızda əhalinin sağlamlığının qorunmasının yaxşılaşdırılması məqsədilə Naxçıvan şəhərində 500 çarpayılıq respublika xəstəxanası, doğum evi, uşaq xəstəxanası, dərizöhrəvi, vərəm, onkoloji mərkəzləri, Səhiyyə Nazirliyinin inzibati binası və qanköçürmə mərkəzi, uşaq evi və uşaq istirahət mərkəzi istifadəyə verilmiş, Duzdağ Fizioterapiya Xəstəxanası genişləndirilmiş, rayon mərkəzlərində və kəndlərdə xəstəxana binaları, sanitar-epidemioloji mərkəzlər, feldşer-mama məntəqələri və çoxsaylı əczaxanalar tikilib istifadəyə verilmişdir. Həmçinin təcili tibbi yardım mərkəzi yaradılmış və bütün rayon mərkəzlərində təcili tibbi yardım stansiyaları təşkil edilmişdir. Tibb müəssisələrinin maddi-texniki bazası gücləndirilmiş, həkimlərin peşəkarlığını artırmaq məqsədilə onların mütəmadi olaraq Bakı, Moskva, Leninqrad, Kiyev, Xarkov, Kazan, Minsk, Alma-Ata və sair şəhərlərdə ixtisaslaşma kurslarına göndərilmələri təmin edilmişdir.

1969-cu ildə dahi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə respublika Ali Sovetinin 7-ci sessiyasında səhiyyə üzrə qanunvericiliyin əsasları haqqında qərar qəbul edilmiş və beləliklə, səhiyyənin inkişaf sürəti prinsipcə kökündən dəyişmiş və respublikanın yeni rəhbərinin bu sahədə tərəqqiyə nail olmaq əzmi özünü dərhal və aydın şəkildə göstərmişdir.

1985-ci ildə muxtar respublika və şəhər xəstəxanası, 1720 çarpayılıq dispanserlər, 680 çarpayılıq kənd sahə xəstəxanaları, doğum evi, şəhər poliklinikası, 13 kənd həkim ambulatoriyası, 141 feldşer-mama məntəqəsi, 30 çarpayılıq uşaq evi, 50 çarpayılıq uşaq istirahət mərkəzi, 7 sanitar-epidemioloji mərkəz, qanköçürmə mərkəzi, 2 təcili tibbi yardım mərkəzi, məhkəmə-tibbi ekspertizası və sanitar maarif evi fəaliyyət göstərirdi. Bu tibb təşkilatlarında 637 həkim və 1959 orta tibb işçisi çalışırdı. Əhalinin hər 10 min nəfərinə 25 həkim, 78,5 orta tibb işçisi düşürdü. Keçirilən tədbirlər nəticəsində əhali arasında bir sıra yoluxucu xəstəliklər – malyariya, traxoma, difteriya, poliomielit və başqa xəstəliklər tamamilə aradan qaldırılmış və ya çox aşağı səviyyəyə düşmüşdü.

Naxçıvan MSSR-in 60 illik yubileyi münasibətilə muxtar respublikada tibb işçilərinin əməyi yüksək qiymətləndirilmişdir. Belə ki, həkim-cərrah Mehdi Bağırova “SSRİ Xalq həkimi”, 36 nəfərə isə “Əməkdar həkim” fəxri adları verilmiş, 125 tibb işçisi “Səhiyyə əlaçısı” döş nişanları ilə təltif olunmuş, 196 nəfər tibb işçisi isə müxtəlif mükafatlara layiq görülmüşdür.

Müstəqilliyimizin ilk illəri məlum hadisələr səbəbindən, əlbəttə ki, səhiyyə sahəsinin də geriləməsi ilə müşahidə olunmuşdur. Xalqımızın 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində müstəqillik uğrunda apardığı mübarizə, SSRİ-nin dağılması və bununla bağlı iqtisadi tənəzzül səhiyyəmiz üçün də izsiz ötüşmədi. Bir tərəfdən də müharibə, Ermənistanın etnik təmizləmə siyasəti və ərazilərimizin işğalı ilə bağlı 1 milyon qaçqın və məcburi köçkün ordusunun olması yenicə müstəqillik qazanan və hələ iqtisadi cəhətdən möhkəmlənməmiş bir ölkədə səhiyyəni prioritet sahə kimi inkişaf etdirməyə imkan vermirdi.

1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi tədbirlər səhiyyə sistemində də öz bəhrələrini verdi. Həmin illər Azərbaycan səhiyyəsində qazanılmış nəticələrdən praktika istifadə edilməsinə yönəlmiş fəal axtarışlarla əlamətdar idi. “Hər şey praktik səhiyyə üçün” ideyası Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin fəaliyyət xəttinin əsasını təşkil edirdi. Həmin dövrdə muxtar respublika ərazisinə ermənilərin hücumu zamanı yaralananlara tibbi xidmət göstərilməsi Səhiyyə Nazirliyi tərəfindən yüksək səviyyədə təşkil edilmişdir. Yaralılara tibbi xidmət göstərilməsi məqsədilə Sədərək Rayon Mərkəzi Xəstəxanası kənddən kənara – təbii mühafizə olunan yerə köçürülərək yaralıların qəbulu məntəqəsinə çevrilmişdir. Fövqəladə vəziyyət rejimində işləyən rayonun həkimləri və Naxçıvan şəhərindən mütəmadi olaraq göndərilən həkim briqadaları yaralılara ixtisaslı tibbi xidmət göstərmiş və bu müddətdə əks-epidemik tədbirlərə ciddi nəzarət etmişlər. Aparılan tədbirlər nəticəsində müvəqqəti olaraq çadırlarda və vaqonlarda yaşayanlar arasında yoluxucu xəstəliklər baş verməmişdir. Ulu Öndərin Ərzurum xəstəxanalarında müalicə olunan yaralılara baş çəkməsi əsgərlərimizin ruh yüksəkliyinin, qələbə əzminin daha da artmasında mühüm əhəmiyyət kəsb etmişdir. O tarixi günlərdə səhiyyə işçilərimiz də müsəlləh əsgər kimi daim qaynar nöqtələrdə, səngərlərdə olub, yaralılara tibbi xidmət göstərmişlər.

1993-cü il iyun ayının 15-də Ümummilli Liderin xalqımızın, millətimizin istək və arzusu ilə hakimiyyətə qayıdışı Milli Qurtuluş Günü kimi səciyyələndirilib və bundan sonra dövlət müstəqilliyini bərpa etmiş ölkəmizdəki bütün tibb müəssisələrində, çoxsaylı xəstəxana və poliklinikalarda yeni islahatlar əsasında yaxşılığa doğru ciddi dəyişikliklər baş verib.

Xalqımızın böyük oğlu Heydər Əliyevin ölkəmizdə siyasi-iqtisadi vəziyyəti yaxşılaşdırmaq naminə əvəzsiz xidmətləri ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da quruculuq salnaməsinə qızıl hərflərlə həkk olunub. Bütövlükdə, 1969-1999-cu illərdə muxtar diyarımızda 1156 yerlik xəstəxana, növbədə 1045 nəfər qəbul edə biləcək poliklinika və ambulatoriyalar tikilib ki, bu da Ulu Öndərimiz tərəfindən əsası qoyulmuş genişmiqyaslı quruculuq və inkişaf konsepsiyasının əyani göstəricisidir.

1993-2003-cü illərdə səhiyyə sahəsində bir sıra fundamental qanunlar, o cümlədən “Əhalinin sağlamlığının qorunması haqqında”, “Qan və onun komponentlərinin donorluğu haqqında”, “İnsanın immun çatışmazlığı virusunun törətdiyi xəstəliyin (AİDS) yayılmasının qarşısının alınması haqqında”, “Əczaçılıq fəaliyyəti haqqında”, “İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında”, “Tibbi sığorta haqqında” və digər qanunlar işlənib hazırlandı və Milli Məclis tərəfindən qəbul edildi. Azərbaycan ərazisində QİÇS və vərəm xəstəliklərinin yayılmasının qarşısını almaq üçün Milli proqramlar işlənib hazırlandı.

Son illərin möhtəşəm quruculuq ünvanlarından olan müasir səhiyyə bu gün bölgəmizdə əhalinin sağlamlığı keşiyində durur. Naxçıvanda ilk dəfə böyrək köçürülməsi, yemək borusunun plastikası, süni oynaq köçürülməsi, diş implantasiyası, açıq ürək, göz və digər bu kimi mürəkkəb əməliyyatların həyata keçirilməsi səhiyyə xidmətinin səviyyəsini xarakterizə edən əsas uğurlardır.

Səhiyyədə kadr hazırlığından danışarkən Naxçıvan Tibb Kollecinin fəaliyyəti də qeyd olunmalıdır. 2018-ci ildə müasir tədrisin tələblərinə uyğun qurulan kollecdə 8 ixtisas üzrə 700-dən artıq tələbə təhsil alır. Bu da səhiyyə müəssisələrinin orta tibb işçilərinə olan tələbatını ödəyir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təşəbbüsü və Ümummilli Liderimizin himayəsi ilə 1999-cu ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi böyük yol keçmiş, muxtar respublikada ixtisaslı həkim kadrlarının hazırlığının əsasını qoymuşdur. Ötən 20 ildə fakültədə tələbələrin tədrisi üçün lazımi şərait yaradılmış, universitet xəstəxanası istifadəyə verilmiş, muxtar respublikanın səhiyyə müəssisələri bu fakültənin tədris bazasına çevrilmişdir.

Əgər yarandığı dövrdə fakültədə yalnız Pediatriya ixtisası üzrə həkim hazırlanırdısa, bu gün müalicə işi, tibbi profilaktika, tibb, ictimai səhiyyə, psixologiya, hərbi tibb, əczaçılıq və stomatologiya ixtisasları üzrə həkim, eləcə də 33 ixtisas üzrə rezident hazırlığı həyata keçirilir. Hazırda fakültədə 4 kafedra, 8 kabinə və 5 laboratoriya, mulyaj-simulyasiya kabinəsi və zəngin kitabxana yaradılmış, 4 mindən çox kitab və tibbi tədris vəsaiti tələbələrin istifadəsinə verilmişdir.

Fəaliyyət göstərdiyi dövrdə Tibb fakültəsini 1000-dən çox məzun bitirmişdir. Ötən dövrdə fakültəni bitirmiş məzunlardan bir nəfəri muxtar respublika səhiyyə nazirinin, bir nəfəri baş həkimin müavini, beş nəfəri tibb üzrə fəlsəfə doktoru, yeddi nəfəri baş həkim, on nəfərdən çoxu şöbə müdiri və yüzlərlə praktik həkim kimi bu gün öz müəllimləri ilə çiyin-çiyinə respublikamızda, eləcə də ölkəmizin hüdudlarından kənarda və dünyanın bir çox ölkələrinin səhiyyə müəssisələrində fəaliyyət göstərirlər.

Naxçıvan Dövlət Universitetinin 25 tələbə ilə fəaliyyətə başlayan Tibb fakültəsində hazırda 1552 tələbə təhsil alır ki, bunlardan 1120-si xarici vətəndaşdır. Bu müddətdə universitetdə də təhsil və elmi-tədqiqat işlərinin səviyyəsinin daha da yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, maddi-texniki bazanın əsaslı şəkildə möhkəmləndirilməsi və yenidən qurulması istiqamətində çoxşaxəli tədbirlər həyata keçirilmişdir. Təhsildə qloballaşma və beynəlmiləlləşmə faktorlarının mühüm əhəmiyyət kəsb etdiyi bir dövrdə universitetin dünyanın ən yaxşı ali məktəbləri sırasında yer alması qürurverici nailiyyətdir. 2022-ci ildə Naxçıvanda keçirilən I Beynəlxalq Tibbi Forum həkimlərin qarşılıqlı təcrübə mübadiləsi aparmalarına böyük imkan yaratmışdır. Bundan əlavə, yeni tərəfdaşlıqlar muxtar respublikada ali təhsilli tibbi kadr hazırlığı, səhiyyənin yüksəkixtisaslı yerli mütəxəssislər ilə təminatı, Naxçıvan Dövlət Universitetində bu sahədə tədrisin keyfiyyətinin yüksəldilməsi, dünya tibb elminin yeniliklərinin mənimsənilməsi və tətbiqi baxımından da öz töhfəsini verdi

Muxtar respublikada əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi bu gün dövlətimizin qarşısında duran əsas vəzifələrdəndir. Müasir Azərbaycan səhiyyəsinin dinamik inkişafının memarı olan Ulu Öndər Heydər Əliyevin siyasi kursunun ölkəmizdə, eləcə də muxtar respublikamızda sədaqətlə, yaradıcı şəkildə davam etdirilməsi digər sahələr kimi, səhiyyə sistemində də yeni uğurlara vüsət verib. Əminliklə demək olar ki, görkəmli dövlət xadiminin uzun illərə hesablanmış strategiyasının uğurla tətbiqi nəticəsində səhiyyə sistemini qarşıda daha böyük tərəqqi və nailiyyətlər gözləyir. Tibbi xidmətin keyfiyyətcə müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Ümummilli Liderin müəyyənləşdirdiyi strateji siyasət kursunu bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev səhiyyə sistemində də layiqincə davam etdirir. Ötən müddətdə bu vacib sahənin inkişafı, onun maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzində saxlanılmışdır. Dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərin ildən-ilə artırılması tibb müəssisələrinin fəaliyyətinin, ümumilikdə, tibb xidmətinin müasir tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açmışdır. Möhtərəm Prezidentimizin dediyi kimi: ***“Səhiyyə xidməti ən yüksək səviyyədə olmalıdır. Bu bizim sosial siyasətimizin əsas istiqamətidir. Çünki insanların sağlamlığı üçün bütün işlər görülməlidir. Azərbaycanda güclü iqtisadi və sosial siyasət aparılır. Hər bir yaşayış məntəqəsində, hər bir rayonda tibbi xidmət yüksək dünya səviyyəsində olmalıdır”. Çünki bu günümüz kimi, gələcəyimiz də yalnız insanların sağlamlığı və sağlam düşüncələri üzərində qurulacaqdır”.***

**İsa ABDULLAYEV**
***Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin professoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi***

10 aprel İnşaatçılar Günüdür

## Ölkəmizdə inşaat sektorunun dinamik inkişafı muxtar respublikada da tikinti-quruculuq işlərinə geniş imkanlar açmışdır

*İnşaat sektorunun inkişafı, bütövlükdə, ölkənin sosial-iqtisadi tərəqqisinə təkan verən mühüm amillərdən biri hesab edilir. Məhz buna görədir ki, Ümummilli Liderimiz Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi illərdə tikinti-quruculuq işlərinə xüsusi diqqət göstərmişdir. Ötən əsrin 70-ci illərində respublikamızda tikinti sektorunun inkişafı xeyli sürətlənmiş, şəhər və rayonlarda nəhəng istehsal müəssisələri, yüzlərlə yaşayış binası, səhiyyə, mədəniyyət, təhsil obyektləri tikilib istifadəyə verilmişdi. Ulu Öndərin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə tikinti-quruculuq işlərinin həcmi daha da genişlənmiş, inşaat sektorunda fəaliyyət göstərən dövlət təşkilatlarına və özəl şirkətlərə maliyyə dəstəyi artırılmış, uzun illər bu sahədə çalışmış, peşəkarlıq qazanmış inşaatçıları öz ətrafında birləşdirən tikinti təşkilatları mütəşəkkil qurucu qüvvəyə çevrilmişdir. Dahi şəxsiyyətin zəngin dövlətçilik təcrübəsi sayəsində ölkəmizdə milli memarlıq üslubu saxlanılmaqla genişmiqyaslı quruculuq proqramı həyata keçirilmişdir.*

Görkəmli dövlət xadiminin siyasi xəttinin layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə hazırda Azərbaycanda böyük tikinti-quruculuq işləri aparılır. Son illər qəbul edilən Dövlət proqramlarının uğurlu icrası iqtisadiyyatın kompleks inkişafına səbəb olmuş, tikinti işlərinin əhatə dairəsi xeyli genişlənmişdir. Bu da, nəticə etibarilə, yeni iş yerlərinin açılmasına, məşğulluq məsələlərinin həllinə və əhalinin rifahının yaxşılaşdırılmasına səbəb olmuşdur.

Bu gün Naxçıvan Muxtar Respublikasında da yenidənqurma, quruculuq işləri uğurla davam etdirilir, şəhər və rayonlarımızda müasir binalar ucaldılır, tarixi abidələr bərpa olunur. Qabaqcıl dünya təcrübəsini və inşaat texnologiyalarını mənimsəyən tikinti sektoru muxtar respublikaya sürətli quruculuq, səmərəli podratçılıq, yüksək keyfiyyət və müasir dizayn gətirmişdir. Böyük təcrübə sahibi olan muxtar respublika inşaatçıları öhdələrinə götürdükləri işi qısa müddətdə və yüksək keyfiyyətlə başa çatdırır, verilən tapşırıqları vaxtında yerinə yetirirlər. Tikinti-quruculuq işləri aparılarkən müasirliklə milliliyin vəhdəti əsas götürülür, Naxçıvan memarlıq məktəbinin ənənələri yaşadılır. Bütün bunların nəticəsidir ki, Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə aparılan geniş tikinti-quruculuq, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi yaşayış məntəqələrinin simasını tamamilə dəyişmişdir.

Belə ki, 2022-ci ildə muxtar respublikada infrastruktur quruculuğu istiqamətində əsas kapitala 157 milyon 763 min 500 manat vəsait yönəldilmişdir ki, bunun da 140 milyon 732 min 500 manatı və ya 89,2 faizi tikinti quraşdırma işlərinin payına düşmüşdür. Aparılan işlər təsərrüfat həyatının bütün sahələrini əhatə edir. Ötən il muxtar respublikada 309 müxtəlif təyinatlı obyekt tikilmiş, yenidən qurulmuş və ya əsaslı təmir olunmuş, 126 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilmişdir.

Yaşayış məntəqələrinin abadlaşdırılması, səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi tədbirlərinə uyğun olaraq 2022-ci ildə 8 kənd mərkəzi istifadəyə verilmiş, 6 kənd mərkəzində tamamlama işləri davam edir. Bundan əlavə, Şərur şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin inzibati binası yenidən qurulmuşdur.

Muxtar respublikada 1 yaşayış binasının tikintisi yekunlaşdırılmış, 4 yaşayış binasının tikintisi, 19 yaşayış binasının yenidən qurulması və 14 yaşayış binasının təmir işləri isə davam etdirilir, 6 yaşayış binasının yenidən qurulması başa çatdırılmışdır. Babək rayonunun Cəhri qəsəbəsində, Sirab kəndində və Şərur rayonunun Həmzəli kəndində içməli su xətlərinin çəkilişi başa çatdırılmışdır. Sədərək rayonunun ətraf kəndləri, Babək rayonunun Nehrəm qəsəbəsi və Araz kəndində içməli su təchizatı və kanalizasiya sistemlərinin, Kəngərli rayonunun Qarabağlar, Xok, Yurdçu və Qabıllı, Sədərək rayonunun Dəmirçi kəndlərində içməli su şəbəkələrinin tikintisi, içməli su xətlərinin çəkilişi davam etdirilir, Culfa rayonunun Yaycı kəndində su təchizatı şəbəkəsinin tikintisi yekunlaşdırılmış və obyektin təhvil-təslim edilməsi istiqamətində işlər aparılmaqdadır. Həmçinin Babək rayonunun Nehrəm qəsəbəsi ərazisində 250, Güznüt, Çeşməbasar kəndləri ərazisində 240



hektar sahədə qapalı suvarma və kollektor drenaj şəbəkəsinin tikintisi davam etdirilir.

Artan əhali tələbatına uyğun olaraq muxtar respublikada müasir yol-nəqliyyat sisteminin qurulması, yeni körpülərin tikintisi və təmiri istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Belə ki, 2022-ci ildə Şərur rayonunun Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Sədərək rayonunun Dəmirçi, Şərur rayonunun Xanlıqlar kəndlərinin giriş avtomobil yolları, Sədərək rayonunun Dəmirçi, Vayxır, Çərçiboğan, Alışar, Babək rayonunun Sirab, Ordubad rayonunun Vənənd-Pəzməri kəndlərinin avtomobil yollarının yenidən qurulması, Culfa rayonunun Milax kəndində körpü təmiri və Ləkətağ kəndində yeni körpü tikintisi başa çatdırılmışdır.

Xanlıqlar-Aşağı Daşarx-Yuxarı Daşarx, Maxta-Dəmirçi kəndləri, Həmzəli-Axura kəndləri, Vərməziyar kəndi, Babək şəhəri, Hüseyn Cavid küçəsi, Cəhri-Aşağı Buzqov kəndləri, Ordubad rayonunun Azadkəndinin avtomobil yollarında işlər davam etdirilir. Muxtar respublikada alternativ enerji istehsalı sahələrinin yaradılması istiqamətində Culfa rayonunda külək turbinləri və idarəetmə binasının tikintisi başa çatdırılmış, 36 Mvt gücündə Ordubad Su Elektrik Stansiyasının, gücü 15,6 Mvt olan Tivi Su Elektrik Stansiyasının, Culfa rayonunda 132/110/35 kilovoltluq elektrik yarımstansiyasının tikinti-quraşdırma işləri davam etdirilir.



Əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi məqsədilə Şərur rayonunun Çomaxtur, Ordubad rayonunun Kələki, Unus və Pəzməri kəndlərində xidmət mərkəzi binalarının tikintisi başa çatdırılmış, Şərur rayonunun Vərməziyar və Həmzəli kəndlərində, Ordubad rayonunun Azadkənd və Xanağa kəndlərində, Babək rayonunun Vayxır kəndində xidmət mərkəzi binalarında son tamamlama işləri davam etdirilir.

Muxtar respublika əhalisinin ərzaq



təminatının yaxşılaşdırılması məqsədilə Kəngərli rayonunun Qabıllı kəndində quşçuluq fermasının yenidən qurulması işləri davam etdirilir.

Sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələ açan, hər kəsə dost məramı ilə yanaşan, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək məqsədilə DOST mərkəzi binasının tikintisi davam etdirilir.

Təhsil sahəsi üzrə infrastruktur quruculuğu tədbirləri çərçivəsində Naxçıvan Dövlət Universitetinin Texnologiyalar Parkının yaradılması, rektorluq binasının yenidən qurulması işləri davam etdirilir.

Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı istiqamətində tədbirlər çərçivəsində 2022-ci ildə Ordubad şəhər stadionu və Naxçıvan şəhər Mərkəzi Stadionunun yenidən qurulması başa çatdırılmış, Naxçıvan Dövlət Universitetinin həyətində və Şərur şəhər stadionunda yenidənqurma işləri hazırda davam etdirilir.

Həmçinin ötən ildə Naxçıvan şəhərində Kimya-Biologiya Təmayüllü Liseyin, Şərur rayonunun Çərçiboğan, Alışar, Babək rayonunun Sirab, Ordubad rayonunun Pəzməri, Xanağa, Kələki, Unus kəndlərində tam orta məktəb binalarının tikintisi və yenidən qurulması işləri başa çatdırılmışdır. Eləcə də Şərur rayonunun Vərməziyar, Həmzəli, Axura, Ordubad rayonunun Azadkənd və Babək rayonunun Vayxır kəndlərində son tamamlama işləri davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Naxçıvan şəhərində STEAM Təlim-Tədris Mərkəzinin tikintisi başa çatdırılmış və təhvil-təslim edilməsi istiqamətində işlər aparılmaqdadır. Şərur rayonunun Çərçiboğan kəndində uşaq musiqi məktəbi binasının, Naxçıvan şəhərində Afiyəddin Cəlilov küçəsində 210 yerlik uşaq bağçası binalarının tikintiləri başa çatdırılmışdır.

Əhaliyə göstərilən səhiyyə xid-



mətlərinin daha da yaxşılaşdırılması istiqamətində Şərur rayonunun Çərçiboğan, Axura və Babək rayonunun Vayxır kəndlərində həkim ambulatoriya binalarının tikintisi və yenidən qurulması işləri başa çatdırılmışdır. Naxçıvan şəhərində Diaqnostika Müalicə Mərkəzi üçün MRT binası, Culfa rayon Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksinin tikinti işləri davam etdirilir.

Milli dəyərlərimizin təbliği, onun daha da zənginləşdirilərək gələcək nəsillərə ötürülməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Bu istiqamətdə 2022-ci ildə Naxçıvan şəhərində Uşaq Kitabxanasının binası təhvil verilmiş və Kəngərli rayonunda Tarix-Diyarşünaslıq Muzeyinin tikintisi davam etdirilir. Şərur Rayon Mədəniyyət Sarayının tikintisi yekunlaşdırılmış, Mərkəzi Kitabxana və Uşaq Kitabxanası binalarının yenidən qurulması işləri davam etdirilir. Naxçıvan şəhərində Heydər məscidinin tikintisinin başa çatdırılması istiqamətində və Ordubad Cümə məscidinin yenidən qurulması ilə bağlı işlər davam etdirilir. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında “ASAN xidmət” Mərkəzinin tikintisində son tamamlanma işləri görülməkdədir.

Muxtar respublikada hüquq-mühafizə orqanlarının maddi-texniki bazasının gücləndirilməsi və iş şəraitinin yaxşılaşdırılması istiqamətində Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsinin tikintisi başa çatdırılmış, “Naxçıvanterminalkompleks” Birliyinin Sədərək Tır parkının tikintisi davam etdirilir, Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Babək Rayon Şöbəsinin inzibati binalarının yenidən qurulması ilə bağlı işlər başa çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 16 dekabr tarixdə imzaladığı Sərəncamına əsasən hər il aprel ayının 10-u İnşaatçılar Gününün peşə bayramı kimi qeyd olunması ölkə başçısının, bütövlükdə, tikinti kompleksi işçilərinin – inşaatçıların, memarların və mühəndislərin əməyinə verdiyi yüksək dəyərin bariz nümunəsidir.

*Peşə bayramlarını qeyd edən muxtar respublika inşaatçıları bundan sonra da əzmlə çalışacaq, yaradıcı əməklərini müstəqil Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının daha da inkişafına sərf edəcəklər.*

**Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitesi**

## Mart ayı ərzində 754 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən muxtar respublikada daşınmaz əmlakın qeydiyyatı və torpaqlardan istifadəyə dövlət nəzarəti mart ayı ərzində də diqqətdə saxlanılıb, fəaliyyət istiqamətləri üzrə həyata keçirilən tədbirlər uğurla davam etdirilib.

Ötən ay ərzində Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planının 15-ci bəndinin icrası ilə əlaqədar ailə təsərrüfatlarında əkin atlaslarına uyğun olaraq əkinlərin keçirilməsinə nail olunması və torpaqlardan səmərəli istifadə edilməsi məqsədilə Ordubad rayonunun Sabirkənd və Culfa rayonunun Ərəzin kəndlərində maarifləndirici tədbirlər keçirilib. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin, Hərracların Təşkili üzrə Auksion Mərkəzinin və xidmətin birgə təşkilatçılığı ilə Babək rayonunun Şəkərabad kəndində bələdiyyə torpaqlarının mülkiyyətə və icarəyə verilməsinə dair bələdiyyə sədrləri maarifləndirilib.

Mart ayında, ümumilikdə, 754 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb, 564 texniki sənəd hazırlanıb, muxtar respublika üzrə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranan 50 daşınmaz əmlak obyektinə ünvan verilib. Həmçinin 93 torpaq sahəsinin planı və ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb, məhdudiyyət və yüklülüyə dair 422 arayış verilib.

Ötən ay torpaqların elektron kadastr uçotu informasiya sistemində torpaq sahələri üzərində aparılan hər bir kadastr əməliyyatı ekspertiza olunub, rəqəmsal xəritəyə ümumi nəzarət həyata keçirilib.

Xidmətin fəaliyyət istiqamətləri üzrə təqdim etdiyi elektron xidmətlərə hüquqi və fiziki şəxslər tərəfindən daxil olan 158 müraciət qəbul edilərək icra olunması üçün aidiyyəti üzrə yönəldilib. Kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranan hüquqlara dair 1039 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilib, 5 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib.

Muxtar respublikanın Şərur, Babək, Ordubad, Culfa və Şahbuz rayonlarının yaşayış məntəqələrində vətəndaşlara səyyar xidmət göstərilib.

**Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti**

# Bahar təravətli, çörək ətirli festivalın sorağı ilə...

Gözəl bir yaz səhəri qədim Nuh yurdunun insanları səbirsizliklə gözlədikləri "Kətə" festivalında iştirak etmək üçün Naxçıvanqalaya tələsir. Kimi öz rayonunun adət-ənənələrini tanıtmaq, kimisi isə balacalara isti kətə almaq üçün. Əsrlərdir ki, qədim diyarımızda xalqımıza məxsus milli və mənəvi dəyərlərin, folklorumuzun, adət-ənənələrimizin, o cümlədən milli mətbəx nümunələrimizin qorunub saxlanılmasına, onun təbliğ edilməsinə, yaşadılmasına böyük diqqət göstərilir. Artıq ənənə halını alan milli mətbəx günlərinin keçirilməsi, xalqımıza məxsus mətbəx nümunələrimizin tanıdılması onların gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır.



"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində aprelin 7-də start verilən və bu gün də davam edəcək "Kətə" festivalına həm yerli sakinlər, həm də qonaqlar tərəfindən maraq müşahidə olunur. Festivalda iştirak edən Naxçıvan şəhər sakini ***Nailə Bağırova*** zəhmətsevər gənclərimizdəndir. Tələbə olduğunu, Türkiyə Respublikasında Ərzurum Atatürk Universitetində qiyabi təhsil aldığını deyən müsahibim bildirdi ki, bir neçə ildir, ailə təsərrüfatı yaradıb. Şirniyyat sexində müxtəlifnövlü şirniyyatlar bişirib satışa çıxarmaqla yanaşı, xəmir məmulatları da hazırlayır. Bugünkü festivalda da həvəslə iştirak edir: – Kətə ən qədim mətbəx nümunəsidir, hər birimiz qədim yeməklərimizi öyrənib təbliğ etməliyik. Ərzuruma təhsil almağa gedəndə oraya mətbəximizə xas yeməklər aparır, digər ölkələrdən olan tələbə qızlara yeməklərimizi hazırlamaq qaydasını öyrədirəm. Bu gün də burada həvəslə iştirak edirəm. Gənc qızlarımıza tövsiyəm odur ki, hər biri milli yeməklərimizin hazırlanmasını öyrənsin ki, uzaq diyarlarda olanda başqa millətlərə Azərbaycanımızın ləziz və zəngin mətbəx nümunələrini fəxrlə təqdim edə bilsinlər.



Şərur rayonunun Ələkli kəndindən festivala qatılan ***Gülnar Babayeva:*** – Muxtar respublikanın şəhər və rayonlarına xas müxtəlif çeşiddə kətələrin hazırlanması qaydalarının nümayiş olunduğu festivala şəhər sakinlərinin, qonaqların, xüsusilə gənclərin marağı böyükdür. Onlar içərisində xarici ölkələrdən gəlib burada təhsil alan tələbələr də az deyil. Eləsi var ki, kətənin dadına ilk dəfə baxır və çox dadlı olduğunu deyir, bunun necə hazırlanması ilə maraqlanır. Bu da başqa millətlərin nümayəndələrinin kətənin məhz xalqımızın ən gözəl mətbəx nümunəsi olduğunu öyrənmələrinə şərait yaradır.



Gülnar xanım çiriş, acıqıcı, cincilim, quşəppəyi, şötük və 6 növ göyərtidən kətə hazırlayıb. Müsahibim festivalı təşkil edənlərə minnətdarlığını bildirdi.

Babək rayonunun Cəhri qəsəbəsindən olan ***Nüşabə Allahverdiyeva*** əlindən gəldiyi qədər çalışır ki, milli mətbəximizin bir-birindən ləzzətli təamlarını, eləcə də nənələrimizdən miras qalan milli yeməyimiz olan kətəni ən gözəl şəkildə, keyfiyyətli hazırlayıb alıcılarımıza təqdim etsin. Deyir ki, satış çox yaxşı gedir, alıcılar da razılıq edirlər. Belə festivalların keçirilməsi muxtar respublikada digər sahələrlə yanaşı, xalqımızın milli mətbəxinin, adət-ənənələrinin gələcək nəsillərə ötürülməsi istiqamətində çox önəmli yer tutur. Həmsöhbətim "Allahdan arzu edirəm ki, xalqımızı, ölkəmizi, elimizi, obamızı həmişə bu cür vəhdətdə görək. Süfrələrimizdən ruzi-bərəkət, ocaqlarımızdan ağsaqqal, ağbirçək xeyir-duası heç bir zaman əskik olmasın" diləklərini də çatdırır.

Ordubad rayonunun Üstüpü kəndindən festivala qatılan ***Mehriban Babayeva:*** – Burada şəhər və rayonlarımıza xas olan müxtəlif çeşiddə kətə növləri və onların hazırlanma qaydasını nümayiş etdiririk. Kətənin göyərtili, ətli, balqabaqlı kimi bol çeşidli növlərinin hazırlanaraq süfrəyə təqdim edilməsinə tədbir iştirakçıları canlı şahid olur və təndirdə bişirilən kətələrin dadına baxmaq imkanı əldə edirlər. Müsahibimiz hər il mütəmadi olaraq festivallarda iştirak etdiyini, tədbirin təşkilatçılarına və əməyi keçən hər kəsə minnətdarlığını bildirir.

Babək rayonunun Zeynəddin kənd sakini ***Sevinc Bağırova*** öz fikirlərini bizimlə bölüşərək bildirir ki, ən çox pencərlə hazırlanan kətələri sevir. Burada hazırlanan kətələr nənələrimizin bizə təndirdə bişirdiyi kətələri xatırladır. Burada da kətələrin təndirdə bişməsi xüsusi dad və gözəllik verir.

Şahbuz rayonunun Aşağı Qışlaq kənd sakini, ailə təsərrüfatçısı ***Südabə Məhərrəmova*** deyir ki, hər il muxtar diyarımızda keçirilən belə festivallarda iştirak edib: – Festival iştirakçılarına Şahbuz dağlarından topladığımız şəfalı bitkilərdən hazırlanan müxtəlif növ kətə çeşidləri təqdim edirik. Təkcə göyərtilərdən deyil, həm də balqabaqdan hazırlanan kətələr də satırıq. Buradan əldə etdiyimiz gəlirlə də ailə büdcəsinə dəstək oluruq. Şəhərimizin sakinləri və gələn qonaqlar da kətələrimizin dadından razılıq edirlər. Kimisi də alıb evinə aparır ki, axşam iftarda yesin.

Culfa rayonunun da fərqli dada malik olan dağ və çöl pencərləri, həmçinin onlardan hazırlanan kətələr festivala gələnlərə təqdim olunur. Bu pencərlər həm də dadı ilə yanaşı, şəfalı olması ilə alıcıların marağına səbəb olur. Təndir başında kətə yapan Milax kənd sakini ***Ceyran Quliyeva*** qeyd etdi ki, hər il keçirilən "Kətə" festivalında həvəslə iştirak edir. Elə bu səbəbdəndir ki, ötən il bu festivalın qalibi olub. Bu il də yığdığı çiriş, cacıq, çəpişqulağı kimi pencərlərdən ləziz kətələr bişirərək Culfa rayonunu təmsil edir.

Kəngərli rayonunun Təzəkənd kənd sakini ***Gülbəniz Əsgərova*** ilə də həmsöhbət oluruq: – Buraya gələn qonaqlar kətələrin hazırlanmasını və süfrəyə təqdim edilməsini canlı olaraq izləmək, təndirdə bişmiş kətə çeşidlərinin dadına baxmaq imkanı əldə edirlər. Bu cür tədbirlərin davamlı keçirilməsi xalqımıza məxsus mətbəx nümunələrini yaşatmaqda böyük rol oynayır. Göstərilən dövlət qayğısına, yaradılan şəraitə görə minnətdarlıq edirəm.

Sədərək rayonunun Sədərək kənd sakini ***Naibə Hacıyeva*** deyir ki, bir neçə ildir, məşğulluğa cəlb edilib. Bir baş iribuynuzlu heyvan alıb. Süd məhsulları ilə bərabər təsərrüfatında bəslədiyi heyvanların qovurmasını da hazırlayır. İllərdir, tanıdığı insanlardan sifarişlər götürür, həm məşğulluğunu təmin edir, həm də ailə büdcəsinə kömək göstərir. Naibə xanım onu da qeyd edir ki, bu gün festivalda təzə göbələk və pencər qovurması hazırlayır. Kəndlərindən topladıqları göbələyi yaza saxladığı qovurma və müxtəlif pencərlərlə birlikdə bişirir. Təzə təndir çörəyi və lavaşı ilə qonaqlara təqdim edir.



Naxçıvan Biznes Mərkəzinin sərgi-satış stendində bir-birindən gözəl əl işləri ilə qarşılaşırıq. İllərdir ki, əl işləri ilə insanların könlünü oxşayan ***Xuraman Seyidova:***

– Qadınlar dünyanın, zinət əşyaları isə qadınların bəzəyidir. Müxtəlif qaşlardan hazırladığım əl işlərimi bu cür tədbirlərdə satışa çıxarır, yaxşı da gəlir əldə edirəm. Ötən ay şəhərimizdə keçirilən Novruz şənliklərində də hazırladığım bəzək əşyalarını satışa çıxarmışdım. Bakıdan ailəsi ilə birlikdə yurdumuza qonaq gələn ***Lamiyə Allahverdiyeva*** ilə Şərur rayonu üçün ayrılmış ərazidə həmsöhbət oluram:

– Rusiyanın müxtəlif şəhərlərində olmuşam, çox yerləri gəzmişəm, amma Naxçıvan kimi gözəl, sakit, təmiz şəhər görməmişəm. Bir məsələni, xüsusilə vurğulamaq istəyirəm. Dünyanın elə inkişaf etmiş ölkələri var ki, onların bəzi şəhərlərində nəinki gecə, gündüz belə küçəyə təkbaşına çıxmaq olmur. Bir neçə gündür, buradayam və tanıdığım insanlar narahatlığa ehtiyac olmadığını, istədiyim saatda şəhərdə təkbaşına gəzə biləcəyimi dedilər. Gördüm ki, kiçik olmasına baxmayaraq sakitlik, sabitlik baxımından bəzi şəhərlərə dərs keçər Naxçıvan. Naxçıvan mətbəxinə gəldikdə isə o öz bənzərsizliyi ilə seçilir. Özünəməxsus dad-tamı ilə qədimdən bəri mətbəximizdə yaşadılmış kətə çeşidlərinin də tanıdılması üçün bu festivalların keçirilməsi çox böyük əhəmiyyət kəsb edir. Ramazan ayı olduğu, oruc tutduğum üçün kətələrin dadına indi baxa bilməsəm də, iftar üçün aldım. Uşaqlarım isə elə buradaca isti-isti yedilər.

Festivalda qardaş Türkiyə Respublikasının vətəndaşları ilə də qarşılaşırıq. ***Ayla Çetin*** burada təhsil alan övladını görmək, həm də Duzdağ Fizioterapiya Mərkəzində şəfa tapmaq üçün gəlib yurdumuza. O bildirir ki, buraya ilk səfəri deyil. İqdır vilayətində yaşadığı üçün tez-tez gəlir övladını görməyə. Hər dəfə yeni bir Naxçıvan kəşf etdiyini deyən müsahibim qeyd edir ki, qədim qala divarları arasında keçirilən bir çox festivalların – "Göycə", "Ailə təsərrüfatı məhsulları" festivallarının da iştirakçısı olub. Bu torpaqda yetişən hər bir məhsul çox dadlı və ləzzətlidir. Artıq Naxçıvan kətəsinin necə bişirildiyini də öyrənib. Milli mətbəximizi hədsiz bəyənir, "Burada olmaq çox gözəldir. Qardaş ölkənin can parçası Naxçıvan türkə qapıdır, hər birimizin ürəyində xüsusi yerə malikdir", – deyir.



Türk soydaşlarımızdan olan digər həmsöhbətimiz ***Güchan Güc*** deyir: – Keçən il də burada olmuşam. Bu il də "Kətə" festivalında iştirak edirəm. Gözəl bir təşkilatçılıqla hazırlanıb. Naxçıvana məxsus, buranın milliliyini özündə əks etdirən festivalların keçirilməsi çox gözəldir. Kətə Naxçıvan milli mətbəxinə məxsus çox qədim bir təamdır. Burada hər bir rayondan ayrı-ayrılıqda iştirak edən insanlar müxtəlif növ kətələr bişirirlər. Bu cür festivalların keçirilməsi, xüsusilə buraya qonaq gələn insanlara milli mətbəxi tanıtmaq baxımından çox yaxşıdır. Bu cür tədbirlərdə təkcə yeməklər deyil, bir çox Naxçıvan məhsulları – "Badamlı", "Sirab", çay, şirniyyatlar, şirkətlərin istehsal etdikləri məmulatlar da insanlara təqdim olunur. İnsanlar onların da dadına baxır və bu həmin məhsulların tanıdılmasında da mühüm rol oynayır.

Festivalın ilk günü buradakı qələbəlik zəngin xalq yaradıcılığımızın, milli dəyərlərimizin, bənzərsiz mətbəximizin təbliği baxımından belə tədbirlərin təşkilinin əhəmiyyətinin çox böyük olduğunu bir daha nümayiş etdirdi.

Qeyd edək ki, Naxçıvanda keçirilən "Kətə festivalı"na yerli əhali və qonaqlar tərəfindən böyük maraq göstərilməsi bunu bir daha sübut etdi ki, müxtəlif növ yeməkləri ilə yanaşı, kətələri ilə də məşhur olan Naxçıvan mətbəxinin bu ləziz dadı bu gün də sevə-sevə hazırlanır və yeyilir. Festivala muxtar respublika üzrə, ümumilikdə, 200 kətə və yeməkbişirən şəxs iştirak edib. Burada Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 90-a yaxın qadının 3000-dən artıq, Biznes Mərkəzi tərəfindən isə 15 yerli sənətkarın 84 adda əl işi satışa çıxarılıb. Festivalda istehsal müəssisələri və iaşə obyektləri də insanlara xidmət göstərir. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən təşkil edilən konsert proqramı iştirakçılarda xoş ovqat yaradır, onlara əsl mədəni istirahət, zövq bəxş edir. Bu gün festivalın yekununda məhsullarının keyfiyyət və dadı ilə seçilən ailə təsərrüfatçılarımız "Ən dadlı kətə" nominasiyası üzrə müsabiqənin qalibləri kimi mükafatlandırılacaq.






Bir zamanlar hücumlara məruz qalsa da, Naxçıvanqala öz əzəmətini, öz qürurunu heç vaxt itirməyib. Naxçıvanlılar daim qurub-yaradıb, gözəlləşdiriblər bu tarixi məkanı. İllərdir ki, bir çox tədbirlərə ev sahibliyi edən bu qədim qala hələ neçə-neçə belə gözəl milli mədəniyyət bayramına qucaq açaraq insanları bir araya toplayıb, adət-ənənələrin unudulmadığını göstərəcək.

**✍ Ramiyyə ƏKBƏROVA**
**✍ Aytac CƏFƏRLİ**
**✍ Bülbül QULİYEVA**
**✍ Aidə İBRAHİMOVA**
**✍ Sürəyya QƏDİMƏLİYEVA**

## Elan

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi "Naxçıvan" Universiteti müvafiq kafedralar üzrə Baş müəllim yerlərini tutmaq üçün müsabiqə elan edir.

Kafedralar üzrə boş yerlər aşağıdakı kimidir:

İqtisadiyyat kafedrası – 1 yer

Müsabiqə üçün sənədlər elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

***Ünvan: Naxçıvan şəhəri,***
***Babək məhəlləsi 1,***
***"Naxçıvan" Universiteti şəhərciyi***
***Telefon: (036) 545-07-45***

### İtmişdir

Nəbiyev Amil Məcnun oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1000. Sifariş № 251**